Bir baxışda

# Dopinq Nəzarət Prosesi

HÜQUQLAR

VƏZİFƏLƏR

AMADA
STAY CLEAN

WORLD ANTI-DOPING AGENCY
play true

# Dopinq Nəzarət
## prosesinin 11 mərhələsi



01 **DOPİNQ NƏZARƏTİ**

Sidik və ya qanınız istənilən vaxtda və yerdə dopinq nəzarəti üçün götürülə bilər.

02 **İDMANÇI SEÇİMİ**

Dopinq Nəzarət İnspektoru (DNİ) və ya çaperon dopinq nəzarəti üçün seçildiyiniz barədə sizi xəbərdarlıq edəcək. Sizdən hüquq və vəzifələrinizlə tanış olduğunuzu bildirən formanı imzalamağınız xahiş ediləcək.

03 **MƏNTƏQƏYƏ GƏLMƏ**

Mümkün qədər tez bir zamanda dopinq nəzarət məntəqəsinə yetişin.



04 **QABIN SEÇİLMƏSİ**

Təqdim olunan seçimlərdən bir toplanma qabı seçin.

05/6 **NÜMUNƏNİN VERİLMƏSİ**

- Minimal olaraq 90 ml sidik verməlisiniz.
- Sidik nümunəsinin təmin edilməsi və toplanma qabına daxil olması prosesinin birbaşa görüntüsü üçün dizlərdən bədənin ortasına qədər və əllərdən dirsəklərə qədər hər hansı paltarı çıxarmaq tələb olunur
- Sidik nümunəsinin təmin edilməsi prosesində sizinlə eyni cinsdən olan DNİ və ya çaperon sizi müşahidə edəcək.




Sizi xəbərdarlıq edən andan dopinq nəzarət prosesinin sonunadək **Siz bütün vaxtı müşayiət olunacaqsınız**.



07 **NÜMUNƏNİN BÖLÜNMƏSİ**

Təqdim olunan seçimlərdən nümunə alınması dəstini seçin. Nümunəni A və B qablarına bölün. İlk olaraq, sidiyi B qabına göstərilən xəttədək tökün. Sonra A qabına doldurun və az həcmdə toplanma qabında saxlayın.



08 **NÜMUNƏNİN KİP BAĞLANMASI**

A və B qablarını kip bağlayın.

09 **NİSBİ SIXLIQ**

DNİ nümunənin analiz üçün müəyyən normadan duru olmamasına əmin olmaq üçün onun nisbi sıxlığını ölçəcək. Nümunə çox durudursa, sizdən təkrar nümunə verməyiniz xahiş edilə bilər.

10 **FORMANIN İMZALANMASI**

Aşağıdakıları etməklə siz Dopinq Nəzarət Formasını doldurmalısınız:

- fərdi məlumatları təqdim edin
- hazırda qəbul etdiyiniz hər hansı maddələri, o cümlədən reseptlə və reseptsiz alınan dərmanları və əlavələri qeyd edin
- dopinq nəzarət prosesi haqqında narahatlıqlarınız və ya şərhləriniz varsa, onları qeyd edin
- təqdim etdiyiniz məlumatın, qeyd olunan rəqəmlərin və nümunə kodunun düzgünlüyünü təsdiq edin
- Formanı imzalayın və sizə aid nüsxəni götürün



11 **NÜMUNƏNİN ANALİZİ**

Nümunələr tam məxfi şəkildə ÜADA tərəfindən akkreditə olunmuş laboratoriyaya göndəriləcək və onların təhlükəsizliyini təmin etmək məqsədilə izləniləcək.
A nümunəniz analiz olunacaq, B nümunəniz isə, gələcəkdə əlavə testlərin tələb oluna bilməsini nəzərə alaraq, təhlükəsiz halda saxlanılacaq.
Laboratoriya analiz nəticələrini məsul antidopinq təşkilatına və ÜADA-ya göndərəcək.

əlavə məlumat **wada-ama.org-da**

# İdmançı Hüquq və Vəzifələri

## Hüququnuz var ki:

- nümayəndəniz olsun və ehtiyac olarsa tərcüməçi verilsin
- nümunə alınması prosesinə dair suallar verəsiniz
- Üzrlü səbəblərdən dopinq nəzarət məntəqəsinə daha gec vaxtda gəlməyi xahiş edəsiniz (DNİ tərəfindən müəyyən olunan)
- Əlilliyi olan idmançısınızsa, nümunə toplanması prosesinə dəyişikliklərin edilməsi barədə müraciət edəsiniz

## Vəzifənizdir ki:

- Sizi xəbərdarlıq edən andan nümunə alınması prosesinin tamamlanmasınadək DNİ/çaperon-nun birbaşa müşayiətində olasınız
- Şəxsiyyəti təsdiq edən sənədi (şəkilli sənəd) göstərəsiniz
- nümunə alınması prosedurlarına əməl edəsiniz (əməl etməmə antidopinq qayda pozuntusu sayıla bilər)
- gecikmə üçün ciddi səbəblər olmadan dərhal dopinq nəzarət məntəqəsinə yetişəsiniz

## DOPİNQ NƏZARƏTİ HAQQINDA VİDEOÇARX

Bu vərəqdə əks olunmuş məlumatın maraqlı və informativ təqdimatı üçün ÜADA-nın Dopinq Nəzarət Videoçarxına aşağıdakı ünvanda seyr edin:

www.wada-ama.org/en/resources/doping-control-process/doping-control-process-for-athletes

Bu məlumat və Ümumdünya Antidopinq Məcəlləsi arasında hər hansı fərq halında, **Məcəllə üstünlük təşkil edir**. Bu məlumat istənilən zaman dəyişdirilə bilər. Ən yeni antidopinq qaydalarını əldə etmək üçün Beynəlxalq Federasiyanız, Milli Antidopinq Təşkilatınız yaxud Milli Federasiyanıza müraciət edin.

Yanvar 2015


WADA

wada-ama.org • info@wada-ama.org
facebook.com/wada.ama • twitter.com/wada_ama

Qərargah
800 Place Victoria, Suite 1700, P.O. Box 120, Montreal, QC, H4Z 1B7, Canada • Tel.: +1.514.904.9232 • Fax: +1.514.904.8650

AMADA STAY CLEAN

amada.az • office@amada.az
facebook.com/amada.az • instagram.com/amada_aze

Qərargah
8, Izmir str., Hyatt Tower 3, AZ 1065, Baku, Azerbaijan
Azerbaijan • Tel.: + 994.12.597.18.39 • Fax: + 994.12.597.18.45


əlavə məlumat wada-ama.org-da